***UOT:33005***

# AZƏRBAYCANIN "DOING BUSINESS" GÖSTƏRƏCİLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ ONUN YAXŞILAŞDIRILMASI YOLLARI

Q.S. SÜLEYMANOV[1+], H.Q. İSMAYILOVA[1]

Məqalədə respublikada biznes fəaliyyətinin tənzimlənməsində dövlətin rolu araşdırılmış, onun "Doing business" hesabatının indikatorlarına görə qiymətləndirilməsi aparılmışdır. Bununla yanaşı, biznes mühitinin əlverişliyinin artırılması üzrə həyata keçirilən islahatlar tədqiq olunmuş, bu sahədə hələ də mövcud problemlər araşdırılmış və onların həlli istiqamətində tövsiyyələr verilmişdir. Beynəlxalq inteqrasiya prosesinin sürətləndirilməsi və nüfuzlu beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması sahəsində təkliflər verilmiş, iqtisadi sahədə münasibətləri tənzimləyən qanunvericilik bazasının daha da təkmilləşdirilməsi məsələlərinə toxunulmuşdur.

Eyni zamanda, "Doing business" hesabatı üzrə göstəricilərin qiymətləndirilmə meyarları verilmiş, həmçinin "Kreditlərin alınması" göstəricisi və bu göstərici üzrə Azərbaycanın dünya ölkələri arasında olan mövqeyi göstərilmişdir.

**Açar sözlər*:*** *"Doing business", biznes mühiti, iqtisadi islahatlar, kreditlərin alınması, iqtisadi təhlil.*

**Giriş.** Qloballaşan müasir dövrdə başlıca hədəflərdən biri milli iqtisadiyyatın rəqabət qabiliyyətliyinin yüksəldilməsi və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla uzunmüddətli perspektivdə ölkənin dinamik sosial-iqtisadi inkişafının davamlılığını təmin etməkdir.

Məhz bu zəruriyyətdən irəli gələrək, Azərbaycanda bu istiqamətdə çoxsahəli və ardıcıl islahatlar həyata keçirilir, biznes mühiti yaxşılaşdırılır, sahibkarlara dövlət dəstəyi daha da gücləndirilir. Bu cür mühitin mövcudluğu qeyri-neft sektorunun davamlı inkişafı, iqtisadiyyatın ixrac qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, bölgələrdə məşğulluğun təmini, investisiyaların cəlbi kimi vəzifələrin yerinə yetirilməsi baxımından mühüm önəm daşıyır.

Həyata keçirilən islahatlar beynəlxalq maliyyə qurumlarının hesabatlarında da öz əksini tapır.

**"Doing Business" göstəriciləri üzrə Azərbaycanın mövqeyi.**

Doing business" hesabatları "biznes mühiti"nin yaxşılaşdırılması, tənzimlənməsi və müəsssilərin təsis olunmasına təsir göstərən amillərin müəyyən edilməsinə əsaslanır. Belə ki, ilk hesabat 2003-cü ildə nəşr olunub və 5 indikator üzrə 133 dövlətin iqtisadiyyatını əhatə etmişdir. Hazırda isə əsas 10 göstərici üzrə 190 ölkənin iqtisadiyyatını əhatə edir. "Doing business" üzrə göstəricilərin qiymətləndirmə meyarları cədvəl 1-də göstərilmişdir [1].

"Duing Business" hesabatlarının Azərbaycan üzrə son bir neçə ilin göstəricilərini nəzərdən keçirək.

Azərbaycanın "Doing Business 2012" reytinqində 69-cu yerdə, 2011-ci ildə 66-cı yerə yüksəlib. 2013-cü ildə Azərbaycan 185 ölkə arasında 67-ci yerdə qərarlaşıb. 2014-cü il Azərbaycan iqtisadiyyatı 189 ölkə arasında 70-ci yerdə olub. 2017-ci ildə isə Azərbaycan 65-ci pillədə qərarlaşmışdı. 2018-ci ildə Azərbaycan 190 ölkə arasında 8 pillə yüksələrək 57-ci yerə qalxıb. Həmin hesabatda Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri kimi təqdim edilmişdi. Azərbaycan Dünya Bankının "Doing Business 2020" hesabatında isə 190 ölkə arasında 76,7 qiymətləndirmə balı ilə 34-cü sırada yer alıb.

[1] Azerbaijan State University of Oil and Industry
[+] Suleymanov G.S., E-mail: suleymanov.q.s@gmail.com

***Cədvəl 1.***

**"Doing business" hesabatı üzrə göstəricilərin qiymətləndirilmə meyarları**

| № | Göstəricilər | Qiymətləndirilmə meyarları |
|---|---|---|
| 1 | Müəssisənin qeydiyyat-dan keçirilməsi (**MQK**) | Prosedurlar (miqdar), müddət (gün), xərc (adambaşına düşən gəlirdən %), minimum səhm kapitalı<br>**MQK= $F_1$(Pm, $M_g$, $X_a$, $S_k$)** |
| 2 | Tikintiyə icazələrin verilməsi (**TİV**) | Prosedurlar (miqdar), müddət (gün), xərc<br>**TİV=$F_2$($P_m$, $M_g$, X)** |
| 3 | Elektrik təchizatı şəbəkə-lərinə qoşulma (**ETŞQ**) | Prosedurlar (sayına görə), vaxt (günlərlə), maya dəyəri, tarif şəfaflığı indeksi<br>**ETŞQ=$F_3$($P_s$, $V_g$, $M_d$, $T_{şi}$)** |
| 4 | Əmlakın qeydiyyatı (**ƏQ**) | Prosedurlar (miqdar), müddət (gün), xərc (əmlak dəyərinə nisbətdə)<br>**ƏQ=$F_4$ ($P_m$, $M_g$, $X_{ədn}$)** |
| 5 | Kreditlərin alınması (**KA**) | Qanuni hüquqların effektivliyinin göstəricisi, kredit məlumatlarının dərinliyi indeksi. **KA=$F_5$ ($Q_{heg}$, $K_{mdi}$)** |
| 6 | Kiçik investorların maraqlarının qorunması (**KİMQ**) | Şəffaflıq indeksi; direktorun məsuliyyət indeksi; səhmdarlar tərəfindən iddianın verilməsi ehtimalı indeksi.<br>**KİMQ=$F_6$ ($Ş_i$, $D_{mi}$, $S_{ivei}$)** |
| 7 | Vergilərin ödənişi (**VÖ**) | Ödənişlər (məbləğ); vaxt (saat); vergi dərəcəsi (%).<br>**VÖ=$F_7$($Ö_m$,$V_s$,$V_d$)** |
| 8 | Beynəlxalq ticarət (**BT**) | İxrac üçün sənədlər (miqdar); ixrac üçün vaxt (gün); ixrac dəyəri (hər konteyner üçün ABŞ dolları); idxal sənədləri (miqdar); idxal etmək vaxtı (gün); idxal dəyəri (hər konteyner üçün ABŞ dolları).<br>**BT=$F_8$(İx$S_m$, İx$V_g$, İx$_d$, İd$S_m$, İd$V_g$, İd$_d$ )** |
| 9 | Müqavilələrin icrasının təmin edilməsi (**MİTE**) | Prosedurlar (miqdar); müddət (gün); xərc (adambaşına düşən gəlirdən%).<br>**MİTE=$F_9$ ($P_m$, $M_g$, $X_a$)** |
| 10 | Ödəyə bilməmə probleminin həlli (**ÖBPH**) | Vaxt (il ərzində); dəyər (adambaşına düşən gəlirdən%); toplama dərəcəsi (dollar başına sent).<br>**ÖBPH=$F_{10}$($V_i$, $D_{ag}$, $TD_d$)** |

Mənbə: "Doing Business" hesabatından istifadə edilərək müəllif tərəfindən tərtib edilmişdir.

Respublikada daim təkmilləşən islahatçı biznes mühiti, biznes üçün 450-dən çox elektron xidmətlər (elektron qeydiyyat, elektron vergi ödəmə, elektron lisenziyalaşdırma, elektron ticarət, elektron intellektual mülkiyyət, elektron ödəmə), biznes qeydiyyatı üçün təkmilləşdirilmiş prosedurlar, asanlasdırılmış lisenziyalaşdırma sistemi; biznes qeydiyyatı, gömrük, tikinti icazələri və lisenziyalaşdırma üçün "vahid pəncərə" (ASAN Xidmət) sistemi, kreditə çıxış imkanlarının genişləndirilməsi, kiçik paya malik olan səhmdarların hüquqlarının qorunması mexanizminin təkmilləşdirilməsi və bu kimi islahatların nəticəsidir ki, Azərbaycan kreditlərin alınması (1-ci yer), müəssisələrin qeydiyyatı (9-cu yer), həmçinin müqavilələrin icrasının təmin edilməsi (28-ci yer) baxımından yaxşı göstəricilərə malikdir [2]. Bu göstəricilər üzrə Azərbaycanın tutduğu yer cədvəl 2-də göstərilmişdir.

***Cədvəl 2.***

**Azərbaycanda "biznes mühiti"nin qiymətləndirilməsi üzrə "Doing business" hesabatı (2020)**

| Göstəricilər | 2019 | 2020 |
|---|---|---|
| Qlobal | 25 | 34 |
| Müəssisənin qeydiyyatdan keçirilməsi | 9 | 9 |
| Tikintiyə icazələrin verilməsi | 61 | 59 |
| Elektrik təchizatı şəbəkələrinə qoşulma | 74 | 80 |
| Əmlakın qeydiyyatı | 17 | 44 |
| Kreditlərin alınması | 22 | 1 |
| Kiçik investorların maraqlarının qorunması | 2 | 105 |
| Vergilərin ödənişi | 28 | 40 |
| Beynəlxalq ticarət | 84 | 83 |
| Müqavilələrin icrasının təmin edilməsi | 40 | 28 |
| Ödəyə bilməmə probleminin həlli | 45 | 47 |

Mənbə: "Doing Business" hesabatından istifadə edilərək müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 2-dən göründüyü kimi qlobal miqyasda Azərbaycan bu il ötən illə müqayisədə 9 pillə geriləmişdir. Bu dəyişikliklər Azərbaycanın iqtisadi siyasət sahəsindəki bəzi məcburi hərəkətlərinin Dünya Bankı tərəfindən mənfi qiymətləndirilməsi ilə əlaqədardır. Bu cür hərəkətlər arasında Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) qoşulmamasını göstərmək olar. Azərbaycan ÜTT-yə daxil olmağa tələsmir. Bu yerli istehsalçıları qorumaq üçün edilir, çünki dövlət subsidiyaları olmasa, yerli istehsalçılar xarici məhsullarla mübarizədə çətinlik çəkəcəklər, ÜTT-yə üzv olan kimi xarici məhsullar daxili bazarı zəbt edəcəkdir [3]. Azərbaycan ÜDM-un 10%-ni kənd təsərrüfatını dəstəkləmək üçün istifadə etməkdə israr edir, ÜTT isə cəmi 5% -lə razılaşır.

Azərbaycanın ÜTT-yə üzv olmamaq siyasətinin milli maraqların qorunması ilə əlaqəli olmasına baxmayaraq, Dünya Bankı bu hərəkətləri mənfi qiymətləndirir və bu da "Doing Business" reytinqində bu il Azərbaycanın "beynəlxalq ticarətin inkişafı" kateqoriyasında 83-cü yer almasına səbəb oldu.

Cədvəl 2-dən göründüyü kimi, 2-ci geriləyən göstərici "Elektrik təchizatı şəbəkələrinə qoşulma" göstəricisidir. 2019-cu illə müqayisədə 6 pillə geriləmişdir. Elektrik təchizatı şəbəkəsinə qoşulma prosedurları (sayına görə), vaxt (günlərlə), maya dəyəri, tədarükün etibarlılığı və tarif şəffaflığı indeksi ilə ölçülür. "Doing Business 2020" hesabatı göstərir ki, Azərbaycanda elektrik təchizatı şəbəkəsinə qoşulma prosedurlarının sayı 7-dir ki, bu da Avropa və Orta Asiya ölkələrinin orta göstəricisindən daha pisdir. Beləliklə, bu göstərici Avropa və Orta Asiyada 5,1-dir. Digər tərəfdən, Azərbaycanda elektrik təchizatı şəbəkələrinə qoşulma dəyəri (adambaşına gəlirin 125,7% -i) Avropa və Orta Asiya ölkələri ilə müqayisədə daha azdır (adambaşına düşən gəlirin 271.9% -i). Bu göstərici ilə elektrik təchizatı şəbəkəsinə qoşulma prosedurlarının çoxluğu Azərbaycanın vəziyyətini pisləşdirir. Bu prosedurların ən çox vaxt aparan hissəsi "Asan Kommunal" da texniki şərtlərin alınması üçün sənədlərin təqdim edilməsi (12 təqvim günü) və "Azərişıq" ASC-də xarici rabitə proyektinin tamamlanmasını və təsdiqlənməsini gözləməkdir (11 təqvim günü). Əgər elektrik təchizatı şirkəti qoşulma prosesini səmərəli etmək üçün bir pəncərə sistemi tətbiq edərsə və elektrik enerjisi xidmətlərinin bərpasını gücləndirmək məqsədilə avtomatlaşdırılmış sistem qurarsa, bu tədbirlər biznes fəaliyyətini asanlaşdıran islahatlar hesab oluna bilər.

Növbəti geriləyən göstərici "Əmlakın qeydiyyatı" göstəricisidir, 17-ci pillədən 44-cü pilləyə qalxmışdır. "Əmlakın qeydiyyatı" göstəricisi prosedurların sayı, vaxt (günlərlə), xərclər (əmlak dəyərinə nisbətdə) və torpaq idarəetmə indeksinin keyfiyyəti ilə ölçülür. Hazırda əmlak üçün qeydiyyata alınma prosedurlarının sayı 4-ə, vaxtı 4.5 günə endirilərsə, xərclər yüksək olaraq qalır. Beləliklə, Avropa və Orta Asiya ölkələrində əmlakın dəyərində əmlakın qeydiyyatı xərclərinin orta payının 2,7% olmasına baxmayaraq, Azərbaycanda müvafiq göstərici 7% təşkil edir. Səudiyyə Ərəbistanında əmlakın qeydiyyatı üçün heç bir ödəniş yoxdur. Azərbaycan əmlakın təhvil verilməsini notariusun depozit hesabına məcburi pul qoydurmaqla çətinləşdirdi. Lakin eyni zamanda Azərbaycanda əmlakın qeydiyyatı, kadastrların əhatə dairəsinin genişlənməsi və kadastr planlarının rəqəmsallaşdırılması daha asan və şəffaf hala gəldi.

Ən çox geriləmə isə kiçik investorların maraqlarının qorunmasında (2-ci yerdən 105-ci yer) olub. Azərbaycan bu göstərici üzrə mümkün 100 baldan 50-ni toplaya bildi. "Kiçik investorların maraqlarının qorunması" göstəricisi iki elementdən ibarətdir - maraqların toqquşmasının tənzimlənməsi və səhmdarların idarəetmə indeksləri. Kiçik investorların maraqlarının qorunması nəzarət payına sahib olmayan şəxslərin müdafiəsini təmsil edir. Bu istiqamətdəki səylərin məqsədi Azərbaycan müəssisələrinin fəaliyyətində şəffaflığa nail olmaqdır ki, bu da onların real gəlirlərini və xərclərini göstərmək, bununla da kiçik investorların maraqlarını qorumaqdır. Respublikada aparılmış islahatların biznes ictimaiyyəti tərəfindən mənimsənilməsini təmin etmək üçün biznes nümayəndələri və konsaltinq firmaları ilə görüşlərin keçirilməsi, həmçinin Mülki Məcəllədə hüquqi şəxslərə dair tətbiq edilən yeniliklərin onların nizamnamələrinə və digər şirkətdaxili sənədlərinə daxil edilməsi, qiymətli kağızlar bazarında listinqi təşviq edəcək əlverişli vergi mühitinin formalaşdırılması ilə bağlı müvafiq təkliflərin hazırlanması kiçik investorların maraqlarının qorunmasına müsbət təsir edəcəkdir.

"Vergilərin ödənişi" indeksi isə 28-ci pillədən 40-cı pilləyə qalxmışdır, yəni 12 pillə geriləmişdir. Bu göstərici firmanın vergi qaydalarına uyğun olan ödənişlərini, vaxtı, ümumi vergi dərəcəsini və s. göstərir. 2020 hesabatı göstərir ki, Azərbaycanda vergi ödənişlərinin sayı 9, sərf olunan vaxt 159 saat, ümumi vergilər və onların mənfəətdə payı 40.7%, prosesdən sonrakı indeks 100 baldan 83.8 olmuşdur. Ən son hesabatda Azərbaycanın bu göstərici üzrə mövqeyinin pisləşməsinin əsas

səbəblərindən biri ƏDV ödəmələrinin dəyişdirilməsinə və geri qaytarılmasına sərf olunan vaxtın artması və mənfəətdə sosial sığorta ödənişlərinin yüksək olmasıdır. Vergi dərəcələrinin azalması və ərizələrin elektron olaraq təqdim edilməsi ilə vaxta qənaət edilməsi "vergi ödənişi" indeksinə müsbət təsir göstərəcəkdir.

"Ödəyə bilməmə probleminin həlli" göstəricisi üzrə Azərbaycanın hazırkı mövqeyi keçən ilə nisbətən bir qədər pisləşib, 45-ci pillədən 47 ci pilləyə. Bu, ölkədə fəaliyyət göstərən müəssisələrin ödəmə səviyyəsinin aşağı olması ilə əlaqədardır ki, bu da bu göstəricidə Azərbaycanın mövqeyini pisləşdirir (cədvəl 3).

Cədvəl 2-də verilmiş göstəricilər üzrə respublikanın "Doing Business" göstəriciləri üzrə vəziyyətini aşağıdakı qrafikdən görmək olar (Qrafik 1).




*Qrafik 1. 2019-2020-ci illər üzrə "Doing Business" göstəriciləri üzrə Azərbaycanın mövqeyi*

***Cədvəl 3***

**"Doing Business" hesabatı üzrə göstəricilərin dəyişməsi**

| Göstəricilər | DB 2020 göstərici | DB 2019 göstərici | Göstəricinin dəyişməsi |
|---|---|---|---|
| Qlobal | 76,7 | 73,6 | 3,1 |
| Müəssisənin qeydiyyatdan keçirilməsi | 96,2 | 96,1 | 0,1 |
| Tikintiyə icazələrin verilməsi | 73,4 | 73,1 | 0,3 |
| Elektrik təchizatı şəbəkələrinə qoşulma | 77,3 | 77,3 | - |
| Əmlakın qeydiyyatı | 75,4 | 72,2 | 3,2 |
| Kreditlərin alınması | 100,0 | 80,0 | 20,0 |
| Kiçik investorların maraqlarının qorunması | 50,0 | 46,0 | 4,0 |
| Vergilərin ödənişi | 84 | 84,6 | -0,6 |
| Beynəlxalq ticarət | 77 | 77 | - |
| Müqavilələrin icrasının təmin edilməsi | 70,3 | 65,7 | 4,6 |
| Ödəyə bilməmə probleminin həlli | 63,5 | 63,8 | -0,3 |

Mənbə: doingbusiness.org

Cədvəl 3-də Azərbaycanda "Doing Business" hesabatı üzrə göstəricilərin dəyişməsi verilmişdir [4]. Cədvəldən göründüyü kimi "Elektrik təchizatı şəbəkəsinə qoşulma" və "Beynəlxalq ticarət" göstəricilərində ötən illə müqayisədə dəyişikliklər olmamışdır. Ən çox dəyişmə "Kreditlərin alınması" göstəricisində olmuşdur[5]. Bu göstəricinin dəyişməsinə səbəb olan amilləri araşdıraq (cədvəl 4).

**"Kreditlərin alınması" göstəricisi və bu göstərici üzrə Azərbaycanın mövqeyi ("Doing business" hesabatı üzrə).**

*Cədvəl 4.*

**Ölkələr üzrə kreditlərin alınması reytinqi**

| Ölkə | Kreditlərin alınması reytinqi | Kredit əməliyyatlarının qorunması səviyyəsi | Kredit məlumatı indeksi |
|---|---|---|---|
| Azərbaycan | 1 | 12 | 8 |
| Yeni Zellandiya | 1 | 12 | 8 |
| Avtraliya | 4 | 11 | 8 |
| İordaniya | 4 | 11 | 8 |
| Gürcüstan | 15 | 9 | 8 |
| Kanada | 15 | 9 | 8 |
| Qırğızıstan | 15 | 9 | 8 |
| Latviya | 15 | 9 | 8 |
| Qazaxıstan | 25 | 8 | 8 |
| Rusiya Federasiyası | 25 | 9 | 7 |

Mənbə: doingbusiness.org

Cədvəl 4-dən göründüyü kimi Azərbaycan Kreditin alınması reytinqində ilk yerlərdən birini tutur. Kredit əməliyyatlarının qorunması indeksi 0-12 arası dəyişir. İndeksin yüksək olması bu qanunların yaxşı inkişaf etdiyini göstərir. Kredit məlumatı indeksi dövlət reyestrlərində və ya özəl bürolarda mövcud olan kredit məlumatlarının çeşidini, mövcudluğunu və miqdarını müəyyənləşdirir. İndeks 0-dan 8-ə qədər miqyasda qiymətləndirilir, burada nə qədər çox olarsa, kredit məlumatları dövlət reyestrində və ya özəl büroda daha çox olur. Eyni zamanda hər iki indeksin göstəricilərinə görə də Azərbaycan ilk yerdədir.

"Doing business" hesabatına əsasən Azərbaycanda keçirilmiş kredit islahatları [6]:

DB 2009: Azərbaycanda dövlət kredit reyestrinə verilən kreditlər üçün minimum həddi aradan qaldırmaqla kredit məlumatlarına çıxış yaxşılaşdırıldı.

DB 2010: Azərbaycanın dövlət kredit reyestri bankların məlumat bazasına onlayn daxil olma, borcalanlar barədə məlumatları artırmaq və məlumatları gec və ya səhv göndərən banklara cəza tətbiq etməklə kredit məlumat sistemini təkmilləşdirdi.

DB 2011: Azərbaycan maliyyə institutlarına dövlət kredit reyestrindən məlumat verməyə və əldə etməyə imkan verən onlayn platforma quraraq kreditə girişi yaxşılaşdırdı.

DB 2018: Azərbaycan kredit bürolarının yaradılmasına imkan verən qanun qəbul etməklə kredit məlumatlarına çıxış imkanlarını yaxşılaşdırdı.

DB 2019: Azərbaycan təmin edilmiş əməliyyatlar və müflisləşmə haqqında yeni qanunu tətbiq etməklə kredit təminatını gücləndirdi, funksional təminatlı əməliyyatlar sistemini tətbiq etdi, girov kimi istifadə edilə bilən aktivlərin dairəsini genişləndirdi. Azərbaycan həm də vahid, müasir və bildiriş əsasında təminat reyestrini qurdu və yeni bir kredit bürosu yaratmaqla kredit məlumatlarına çıxış imkanlarını yaxşılaşdırdı.

DB 2020: Azərbaycan borc və öhdəliklərin ümumi təsvirinə, təhlükəsizlik maraqlarının məhkəmədənkənar müdafiəsinə imkan verir.

**Nəticə.** "Biznes mühit" və onun "Doing business" hesabatı üzrə təhlili nəticəsində aşağıdakı nəticə və təklifləri söyləmək olar:

- Milli iqtisadiyyatın rəqabət qabiliyyətliyinin yüksəldilməsi və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyası biznes mühitinə müsbət təsir göstərəcəkdir.
- Qabaqcıl beynəlxalq təcrübəyə uyğun olan cəlbedici biznes və investisiya mühitinin formalaşdırılması, mütərəqqi tənzimləmə və hüquqi bazanın olması ən vacib məsələlərdəndir.
- Biznes fəaliyyətin həyata keçirilməsində elektron dövlət xidmətləri sahələrin əhatə dairəsinin genişləndirilməsi də kömək edəcəkdir.
- Respublikada müəssisələrin modernləşdirilməsi və beynəlxalq standartlara cavab verməsi bu

müəssisələrə istehlakçıların diqqətini artıracaqdır.

- Respublikada aparılmış islahatların biznes ictimaiyyəti tərəfindən mənimsənilməsini təmin etmək üçün biznes nümayəndələri və konsaltinq firmaları ilə görüşlərin keçirilməsi, həmçinin Mülki Məcəllədə hüquqi şəxslərə dair tətbiq edilən yeniliklərin onların nizamnamələrinə daxil edilməsi, qiymətli kağızlar bazarında listinqi təşviq edəcək əlverişli vergi mühitinin formalaşdırılması ilə bağlı müvafiq təkliflərin hazırlanması kiçik investorların maraqlarının qorunmasına müsbət təsir edəcəkdir.

Bütün bu tədbirlərin həyata keçirilməsi ölkəmizdə biznesin perspektiv dövrdə beynəlxalq inteqrasiyasını sürətləndirər və ölkəmiz "Doing business" indekatorları üzrə reytinq cədvəlində rəqabətədavamlıq göstəricilərinə görə dünyanın 10 ölkələri sırasına daxil ola bilər.

## REFERENCES


1. https://www.doingbusiness.org/en/methodology
2. İqtisadi islahatların təhlili və kommunikasiya mərkəzi, "Azərbaycan iqtisadi islahatlar icmalı", 2019
3. **İsmayılov R.A.** "Azərbaycanda məhsulların fərdləşdirilmə vasitələrinin hüquqi tənzimlənməsi vasitələri", *Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri*, Bakı 2019, cild 11, №2, s.118-123
4. https://www.doingbusiness.org/en/rankings
5. https://www.doingbusiness.org/en/data/exploretopics/getting-credit/reforms
6. https://www.doingbusiness.org/en/reforms/overview/economy/azerbaijan


### ТЕКУЩЕЕ СОСТОЯНИЕ ПОКАЗАТЕЛЕЙ "DOING BUSINESS" АЗЕРБАЙДЖАНА И МЕТОДЫ ИХ ПОВЫШЕНИЯ

Г.С. СУЛЕЙМАНОВ, Х.Г. ИСМАЙЛОВА

В статье изучена роль государства в регулировании бизнес-деятельности в республике, проведена его оценка по индикаторам отчета "Doing business". Исследованы реформы по повышению доступности бизнес-среды, рассмотрены существующие в этой области проблемы и даны рекомендации по их решению. Предложены меры по ускорению процесса международной интеграции и дальнейшему улучшению позиции Азербайджана в авторитетных международных рейтингах, затронуты вопросы дальнейшего совершенствования законодательной базы, регулирующие отношения в экономической сфере.

Приведены критерии оценки показателей по отчету "Doing business", а также указана позиция Азербайджана среди стран мира по показателю "Получение кредитов".

***Ключевые слова:*** *"Doing business", бизнес-среда, экономические реформы, полечение кредитов, экономический анализ.*

### THE CURRENT STATE OF AZERBAIJAN'S "DOING BUSINESS" INDICATORS AND THE MAIN DIRECTIONS OF ITS IMPROVEMENT

G.S. SULEYMANOV, H.G. ISMAYLOVA

The article analyses the role of the state in the regulation of business activity in the Republic and evaluates it according to the indicators of "Doing business" Report. At the same time, the reforms carried out to improve the business environment were studied, the problems still exist in this area were analyzed and recommendations were given for their solution, proposals were made to accelerate the international integration process and further improve the position of Azerbaijan in the prestigious international rankings, issues of further improvement of the legislative base regulating economic relations were.

At the same time are given criteria of evaluating indicators for the Doing business report and also specified the position of Azerbaijan among the countries of the world in terms of the "Get loans" indicator.

***Key words:*** *"Doing business", business environment, economic reforms, credit purchase, economic analyses.*

*Redaksiyaya daxil olub:* *15.06.2020*
*Tamamlama işlərindən sonra:* *17.11.2020*
*Nəşrə qəbul edilib:* *27.11.2020*